# 150 ilin 30 illik söhbəti

**Milli mətbuatımızın yaranmasının 150 illiyi münasibətilə Azərbaycan Dövlət Nəşriyyatı tarix üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist Natiq Məmmədlinin “150 ilin söhbəti” kitabını nəşr edib. Kitabda müəllifin 30 illik araşdırmaları, eləcə də oçerk, məqalə, müsahibə və mediaya aid yazıları toplanıb.**

BP (British Petroleum) şirkətinin dəstəyi ilə çap olunmuş kitab milli mətbuat tariximizin və müasir jurnalistikanın öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Kitabın əsas qayəsini milli-mənəvi dəyərlərin qorunması, tarixi yaddaşın dirçəldilməsi və dövlətçilik ideyalarının təbliği təşkil edir. Bu ana mövzular çərçivəsində təqdim olunan yazılar, eyni zamanda, müasir Azərbaycan jurnalistikasının inkişaf meyillərini əhatə edir. Müəllifin milli mətbuat tarixinə yanaşması sistemli və analitik xarakter daşıyır ki, bu da kitaba həm publisistik, həm də elmi dəyər qazandırır. Müəllifin yaradıcı axtarışlarının yalnız müəyyən bir qismini əhatə edən kitab maarifçi fikir adamlarının zəngin irsinin geniş oxucu kütləsinə təqdim olunmasına, ölkədə publisistika ənənələrinin daha dərindən tanıdılmasına və yayılmasına mühüm töhfə verir.




Kitabın elmi redaktoru Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, rəyçiləri Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov və Mətbuat Şurasının sədri Rəşad Məcid, redaktoru isə Yazıçılar Birliyinin Gənclər Şurasının sədri Fərid Hüseyndir. Azərbaycan mətbuat tarixi sahəsində tanınmış alim, Bakı Dövlət Universitetinin Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli kitaba ön söz yazıb.

Bir neçə gün əvvəl “Ədibin Evi”ndə “150 ilin söhbəti” kitabının təqdimat mərasimi keçirilib.

**XQ**